*Azərbaycan Ordusu, Azərbaycan əsgəri bilməlidir ki, ölkəmizin ərazi bütövlüyü nəyin bahasına olursa-olsun, bərpa edilməlidir.*

**Heydər ƏLİYEV**




# AZƏRBAYCAN ORDUSU

AZƏRBAYCAN RESPUBLİKASI MÜDAFİƏ NAZİRLİYİNİN ORQANI

Qəzet 1992-ci il fevralın 11-dən çıxır 8 mart 2016-cı il № 18 (2033) Qiyməti 25 qəpik


## 8 Mart Beynəlxalq Qadınlar Günü münasibətilə Azərbaycan qadınlarına təbrik



Hörmətli xanımlar!

Sizi Beynəlxalq Qadınlar Günü münasibətilə ürəkdən təbrik edir, hamınıza cansağlığı, səadət və uğurlar arzulayıram.

Azərbaycan qadınının cəmiyyətimizdə qazandığı yüksək mövqe və elmdə, təhsildə, mədəniyyətdə fəth etdiyi zirvələr bizim tarixi nailiyyətimiz, əbədi qürur mənbəyimizdir. Onun ictimai nüfuzu dövlət müstəqilliyinin bərpasının iyirmi beşinci ildönümünü vahid məfkurə ətrafında birləşmiş şəkildə qarşılamağa hazırlaşan Azərbaycanın müasir həyatının diqqətəlayiq gerçəkliyidir. Azərbaycan xanımları ülvi amallar naminə zəngin ictimai fəaliyyətləri boyunca özlərinin daxili aləmlərinin ahəngdarlığını həmişə layiqincə qoruyub saxlamış, mürəkkəb sosial-siyasi dəyişikliklərin baş verdiyi ən müxtəlif dövrlərdə cəmiyyətimizin əsl mənəvi dayağı olmuşlar.

İnsan qəlbinin gözəlliklərinin tərənnümçüsü, kövrək təbiətli qadın şair və musiqiçilərimizin, xeyirxahlıq, insanpərvərlik rəmzi qadın həkim və müəllimlərimizin adları yaxın keçmişimizin hər bir səhifəsini bəzəyir. Milliliklə müasirliyin vəhdətini mənəviyyatının ayrılmaz tərkib hissəsinə çevirən Azərbaycan qadınının zərifliyi, saflığı və sədaqəti söz, sənət abidələrimizdə əhatəli bədii təcəssümünü tapmışdır. Xalqımızın onun cəmiyyət həyatında yaxından iştirakına münasibətinin nəticəsidir ki, Azərbaycanda qadın hərəkatının görkəmli xadimləri öz dərin zəkalarına, tükənməz potensiallarına güvənərək yeni tarixi şəraitdə böyük müvəffəqiyyətlər qazanmışlar.

İnanıram ki, sürətlə qloballaşan dünyada gənc nəslin çoxəsrlik tarixi-mədəni irsimizə ehtiram, vətənpərvərlik və azərbaycançılıq məfkurəsinə sədaqət ruhunda yetişdirilməsi üçün siz bundan sonra da əlinizdən gələni əsirgəməyəcək, bütün gücünüzü, istedad və bacarığınızı ölkənin intellektual-mənəvi sərvətlərinin zənginləşdirilməsi yolunda səfərbər edəcəksiniz.

Bayramınız mübarək olsun!

**İlham ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı şəhəri, 4 mart 2016-cı il.

## Azərbaycan Respublikası Müdafiə nazirinin 8 Mart Beynəlxalq Qadınlar Günü münasibətilə Silahlı Qüvvələrdə xidmət edən qadınlara təbriki

Əziz qadınlarımız!

Sizi 8 Mart Beynəlxalq Qadınlar Günü münasibətilə təbrik edir və ən xoş arzularımı bildirirəm.

Azərbaycan qadınları tarixin bütün mərhələlərində kişilərlə birlikdə ölkənin ictimai-siyasi, mədəni həyatında fəal iştirak etmiş, Vətənin müdafiəsində və dövlətin idarə olunmasında fədakar xidmətlər göstərmişlər.

Qarabağ müharibəsinin ilk günlərindən könüllü olaraq döyüşlərə atılan qadınlarımız şəxsi igidlik nümunələri göstərmiş, onların bir çoxu şəhidlik zirvəsinə ucalmış, Azərbaycanın Milli Qəhrəmanı adına layiq görülmüş, orden və medallarla təltif olunmuşlar.

Bu bayram günündə şəhid qadınlarımızın xatirəsini hörmət və ehtiramla yad edir, onların doğmalarına, ümumiyyətlə, bütün şəhid analarına, şəhid hərbi qulluqçuların vəfalı ömür-gün yoldaşlarına, eləcə də Vətənə layiqli övladlar yetirən əsgər analarına bayram təbriklərimi çatdırıram.

Hazırda Silahlı Qüvvələrimizin bütün qoşun növlərində, xüsusi təyinatlı hərbi təhsil müəssisələrində, hərbi tibb ocaqlarında və digər sahələrdə yüzlərlə qadın xidmət edir və Vətən qarşısında vəzifə borclarını şərəf və ləyaqətlə yerinə yetirirlər.

İnanıram ki, Silahlı Qüvvələrimizdə xidmət edən qadınlarımız bundan sonra da ölkə rəhbərliyinin etimadını doğruldacaq, göstərilən diqqət və qayğıya cavab olaraq Vətənə, xalqa, dövlətə sədaqətlə xidmət edəcəklər.

Bayramınız mübarək olsun, əziz qadınlarımız!

**General-polkovnik**
**Zakir HƏSƏNOV**
**Azərbaycan Respublikasının Müdafiə naziri**



Azərbaycan qadını yüksək hörmət və ehtirama layiqdir

2-ci səhifədə



Artilleriyaçılar öndədirlər

3-cü səhifədə



Vətəni qorumaq borcumuzdur

7-ci səhifədə



Qəhrəmanlar heç zaman unudulmurlar

8-ci səhifədə

# Azərbaycan qadını yüksək hörmət və ehtirama layiqdir

## Müdafiə naziri Silahlı Qüvvələrdə xidmət edən və çalışan qadınların bir qrupu ilə görüşüb

***Yer üzünün əşrəfi insandırsa, ən müqəddəs varlıq anadır. Çünki ana dünyaya insan gətirir, onu halal südü, zəhməti ilə böyüdüb tərbiyə edir. Əlbəttə, təkcə ilin bir günü yox, hər gün, hər saat analarımız, qızlarımız, gəlinlərimiz, bacılarımız xatırlanmalı, ehtiram hissi ilə anılmalıdır.***



Azərbaycan qadını qərinələr boyu öz mərdliyi, isməti, ailəcanlığı ilə ad çıxarıb. Qadınlarımız həyatın ən çətin anlarında ömür-gün yoldaşları ilə çiyin-çiyinə olublar, silaha sarılıb düşmənlə mübarizəyə atılmaqdan çəkinməyiblər. Qəhrəman övladlar böyüdüblər, onlara Vətəni ana qədər əziz bilib qorumağı ərmağan ediblər. Buna görə də Azərbaycan qadını ən uca hörmət və ehtirama layiqdir.

Ümummilli liderimiz Heydər Əliyev ölkəmizdə siyasi hakimiyyətdə olduğu bütün dövrlərdə qadınlara böyük diqqət yetirib, onlara cəmiyyətin aparıcı qüvvəsi kimi inanıb. O qeyd edirdi ki, qadınsız həyat yoxdur. “Qadınlar cəmiyyətdə, həyatda göstərdikləri bütün başqa xidmətlərlə yanaşı, ona görə ən yüksək qiymətə layiqdirlər ki, onlar anadırlar". Məhz dahi rəhbərin diqqət və qayğısı ilə əhatə olunan yüzlərlə, minlərlə qadın həyatımızın müxtəlif sahələrində yüksək vəzifələrə irəli çəkilib, dövlət idarəçiliyi sistemində onlara etibar edilib.

Qadınlara olan diqqət və qayğı müasir dövrümüzdə də dövlət siyasətinin əsas istiqamətlərindən biridir. Ulu öndərin siyasi məktəbinin yetirməsi olan Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev tərəfindən qadınlara həyatımızın bütün sahələrində hərəkatına geniş yer verilir, ən məsuliyyətli vəzifələrdə də zərif cinsin nümayəndələrinə etibar edilir. Qeyd etmək lazımdır ki, Heydər Əliyev Fondunun prezidenti, Milli Məclisin üzvü Mehriban xanım Əliyeva başda olmaqla, qadınlarımız ölkənin ictimai-siyasi həyatında geniş təmsil olunurlar. Bu gün Azərbaycanda elə bir sahə yoxdur ki, orada qadınların yaradıcı əməyindən istifadə edilməsin.

Silahlı Qüvvələrimizdə də qadınların rolu böyükdür, onlar ordu quruculuğuna dəyərli töhfələr verirlər. Müxtəlif hərbi qurumlarda, xüsusi təyinatlı təhsil müəssisələrində, habelə əsgərlərin məişəti ilə bağlı sahələrdə çalışan qadınlar öz fədakarlıqları ilə nümunədirlər.

Martın 7-də Müdafiə naziri general-polkovnik Zakir Həsənov Silahlı Qüvvələrdə xidmət edən və mülki qulluqçu kimi çalışan qadınların bir qrupu ilə görüşdü.

Ümummilli lider Heydər Əliyevin və Azərbaycanın ərazi bütövlüyü, suverenliyi uğrunda şəhid olan soydaşlarımızın ruhu mərasimin əvvəlində bir dəqiqəlik sükutla yad edildi.

Dövlət himni səsləndirildikdən sonra Azərbaycan Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyevin Azərbaycan qadınlarına təbriki oxundu. Dövlət başçısının təbrikində qeyd edildi ki, qadınlarımızın cəmiyyətdə qazandıqları yüksək mövqe, elmdə, təhsildə, mədəniyyətdə və digər sahələrdə fəth etdikləri zirvələr bizim tarixi nailiyyətimiz, əbədi qürur mənbəyimizdir.

Sonra Müdafiə naziri general-polkovnik Zakir Həsənov çıxış edərək Silahlı Qüvvələrimizin bütün qadın nümayəndələrini 8 Mart Beynəlxalq Qadınlar Günü münasibəti ilə təbrik etdi və əminliklə vurğuladı ki, bu gün ölkənin ordu quruculuğunda da Azərbaycan qadınının əhəmiyyətli rolu vardır. Nazirin sözlərinə görə, Azərbaycan dövləti, şəxsən Prezident, Ali Baş Komandan cənab İlham Əliyev tərəfindən qadınlara göstərilən diqqət onlara ruh yüksəkliyi aşılayır. "Harada xidmət etmişəmsə, qadınlarımızın nümunəvi xidmətlərini, səliqəli, intizamlı və məsuliyyətli olduqlarını hiss etmişəm. Bu gün də ordumuzun tərkibində bir çox hərbi vəzifələrdə və mülki işlərdə xanımlarımız məsuliyyət hissi ilə çalışırlar".

Nazir çıxışının sonunda bir daha qadınları təbrik edərək onlara həyatda cansağlığı, uzun ömür, ailə səadəti, xoşbəxtlik və işlərində uğurlar arzuladı.

Silahlı Qüvvələrin qadın hərbi qulluqçuları adından çıxış edən tibb xidməti leytenantı Aynur Bayramova dövlətimizin rəhbərliyi tərəfindən ölkədə qadınların zəhmətinə verilən yüksək dəyəri qeyd etdi. O bildirdi ki, müasir dövrdə doğma ordumuzun müxtəlif strukturlarında, bölmələrində çalışan qadın hərbçilərə və mülki işçilərə Müdafiə Nazirliyinin rəhbərliyi tərəfindən diqqət və qayğı göstərilir. Gənc tibb zabiti Silahlı Qüvvələrdə çalışan, xidmət edən qadınların arzularını ifadə edərək bildirdi ki, dövlətin, xalqın və ordu rəhbərliyinin yüksək etimadını əməli fəaliyyətlərində layiqincə doğruldacaqlar.





Bayram tədbiri Müdafiə Nazirliyinin Əlahiddə Nümunəvi Hərbi Orkestri solistlərinin ifasında rəngarəng musiqi nömrələrindən ibarət konsert proqramı ilə başa çatdı.

**"Azərbaycan Ordusu",**
**fotolar**
**çavuş**
**Vüsal HƏMİDOVUNDUR**

# Bakıda “NATO-nun Varşava Sammiti: imkanlar və gözləntilər” mövzusunda beynəlxalq konfrans keçirilib

***Martın 7-də Bakıda "NATO-nun Varşava Sammiti: imkanlar və gözləntilər" mövzusunda beynəlxalq konfrans keçirilib.***

Konfrans Azərbaycan Milli Elmlər Akademiyasının İnsan Hüquqları İnstitutu və NATO-nun ölkəmizdəki əlaqələndiricisi olan Rumıniyanın Bakıdakı səfirliyi tərəfindən birgə təşkil olunub.

AZƏRTAC xəbər verir ki, müvafiq qurumların nümayəndələrinin, beynəlxalq təşkilatların təmsilçilərinin, alim və mütəxəssislərin iştirak etdikləri konfransda İnsan Hüquqları İnstitutunun direktoru, Milli Məclisin deputatı Aytən Mustafayeva Azərbaycan-NATO əməkdaşlığının əhəmiyyətindən danışıb.

O, Azərbaycanın təhlükəsizliyə, sülhə və sabitliyin qorunmasına daim xüsusi önəm verdiyini vurğulayıb.

Müasir dünyada gedən siyasi proseslərdən, NATO-nun fəaliyyətinin mühüm rolundan bəhs edən Rumıniyanın Azərbaycandakı səfiri Daniel Kristian Çiobanu NATO-Azərbaycan münasibətlərinin inkişaf etdiyini diqqətə çatdırıb. Səfir NATO-nun Varşava Sammitinin çox uğurla keçəcəyinə əminliyini vurğulayıb.

Azərbaycan Respublikasının Prezidenti Administrasiyasının xarici əlaqələr şöbəsinin baş məsləhətçisi Elmar Hüseynov ümummilli lider Heydər Əliyevin Azərbaycan-NATO əməkdaşlığına daim böyük əhəmiyyət verdiyini, ulu öndərin siyasi xəttinin bu gün Azərbaycan Prezidenti İlham Əliyev tərəfindən davam etdirildiyini bildirib. O, Azərbaycanın NATO-nun ən fəal tərəfdaşlarından biri olduğunu qeyd edərək Prezident İlham Əliyevin Alyansın sammitlərində mütəmadi iştirak etdiyini xatırladıb.

Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinə toxunan E.Hüseynov NATO-nun öz sammitlərində və yekun bəyannamələrində ölkəmizin ərazi bütövlüyünə və suverenliyinə verdiyi dəstəyin mühüm əhəmiyyət kəsb etdiyini vurğulayıb.

Xarici İşlər Nazirliyinin beynəlxalq təhlükəsizlik şöbəsinin müdiri Qaya Məmmədov "Azərbaycan-NATO əməkdaşlığı", NATO-nun Baş ofisinin siyasi məsələlər və təhlükəsizlik bölməsinin Avratlantik inteqrasiya və tərəfdaşlıq üzrə aparıcı eksperti Steffen Elgersma "Azərbaycan-NATO əlaqələrinin gələcəyi" mövzularında məruzələr ediblər.

Sonra digər mövzularda məruzələr dinlənilib.

Beynəlxalq konfransda Azərbaycan, Şimali Atlantika İttifaqı və tərəfdaş ölkələr arasında əməkdaşlığın bir sıra aspektləri ətrafında fikir mübadiləsi aparılıb.

*Döyüş hazırlığı*

# Artilleriyaçılar öndədirlər



***Cəbhə bölgəsindəki "N" hərbi hissəsi ağır müharibə illərində şərəfli döyüş yolu keçib və ərazilərimizin Ermənistanın hərbi təcavüzündən qorunmasında əhəmiyyətli rol oynayıb. Qərargahın qarşısındakı şəhid döyüşçülərin xatirə kompleksi də buradan keçən hər kəsə bir anlığa ötən müharibə dövrünü xatırladır.***

Torpaqlarımızda qızğın hərbi əməliyyatların getdiyi dövrdə də bu hərbi hissəyə ezamiyyətdə çox olurdum, döyüşçülərimizin uğurlu hərbi əməliyyatlarından, fədakarlıq nümunələri göstərən əsgər və zabitlərimizdən yazaraq onları qəzetimizin oxucularına tanıdırdım. Birbaşa döyüş meydanında yaranan hərbi hissənin o vaxtkı dövrünü bu günümüzlə müqayisə edəndə, böyük islahatların, yeniliklərin şahidi olursan. Doğrudan da, qürurvericidir ki, cəmi 25 ilə yaxın müddətdə Silahlı Qüvvələrimizin inkişafında nə qədər yeniliklər baş verib və bütün bunlar dövlətimizin rəhbərliyi tərəfindən ölkədə ordu quruculuğuna göstərilən diqqət və qayğının parlaq nümunəsidir.

Təcrübəli zabit Sahib Şahverdiyevlə söhbətim zamanı döyüş hazırlığı ilə seçilən hərbi bölmələrdən yazılar hazırlayacağımı bildirəndə, ön xətdəki bölmələrlə yanaşı, artilleriya divizionunun da adını çəkdi və qeyd etdi ki, ötən ilin nəticələrinə görə fərqlənənlər arasında topçuların öz yeri vardır.

Ön xətdə yerləşən bir neçə döyüş bölməsində olduqdan sonra axşamtərəfi diviziona gəldik. Burada şəxsi heyət çöl şəraitində məşğələyə cəlb edilmişdi. Ənənəvi olaraq top komandiri tərəfindən heyətin təlimatlandırılması başlanır və sonra hər kəs vəzifə bölgüsünə uyğun olaraq üzərinə düşən döyüş tapşırığını icra edir.

Məşğələdən sonra heyət üzvləri ilə tanışlığa başlayıram. Öncə top komandiri çavuş Abuzər Alıyevin üzərində dayanmaq istərdim. Tovuzun Yuxarı Öysüzlü kəndindən olan bu gənc Ağdam bölgəsində ön xətdə əsgəri xidmətini başa vurub. Hərbi xidmətə olan marağı isə onun yenidən ordu sıralarına qayıtmasına səbəb olub. Abuzər deyir ki, doğulduğu rayonun düşmənlə sərhəd məntəqələrinin keşiyində dayanmağı özünə bir vətəndaşlıq borcu bildiyindən müqaviləli döyüşçü olmaq qərarına gəlib.

- Hərbi peşə məndə qürur doğurur, - deyə gənc müsahibim doğma el-obasına olan sevgisini Vətənə bağlılığının əsas səbəbi hesab edərək söhbətinə davam edir. - Əslində cəbhə xəttində əsgəri xidmətim mənə hərbçiyə xas olan vacib xüsusiyyətlər aşılamışdı. Yaxşı bilirəm ki, yurdumuzu qoruyan müsəlləh döyüşçü olmaq üçün hər addımda cəsurluq və hünər göstərməyə qadir olmalısan. Əbəs yerə demirlər ki, ordu cəsurların yeridir.



Bacarıqlı, vətənpərvər top komandirinə görə, artilleriya müharibədə qələbənin qazanılmasında mühüm rola malik olduğuna görə, bu hərb sənətinin sirləri şəxsi heyətə dərindən aşılanır. "Çalışırıq ki, topun idarə edilməsinə cavabdeh olan heyətin üzvləri öz vəzifələrinin öhdəsindən bacarıqla gəlmək üçün lazım olan döyüş vərdişlərinə yetərincə yiyələnsinlər. Bundan əlavə, hər bir heyət nəferi başqa döyüş vəzifəsində də öz silahdaşını əvəz etməyə qadir olmalıdır. Bu isə müharibənin qayda-qanunlarından irəli gəlir, axı döyüşdə itkisiz keçinmək olmur".

Budur, heyət komandiri çöl məşğələsində silahın atış üçün hazır vəziyyətə gətirilməsi tapşırığını verir. Müxtəlif vaxtlarda ordu sıralarına çağırılmasından asılı olmayaraq, hər kəs öz vəzifə borcunu inamla yerinə yetirir. Bu isə deməyə əsas verir ki, artilleriyaçı zabitlər tabeliklərində olan top heyətlərinin döyüş hazırlığının artırılmasına ciddi önəm veriblər.

Lənkərandan hərbi xidmətə çağırılmış Pənah Şükürzadə, Biləsuvardan Anar Ağazadə, Ağdaşdan Məhəmməd Hacıyev və Qəbələdən Zakir Tahirli haqqında söhbət açdığım top heyətinin üzvləridir. Onların hər biri ilə söhbət edirəm, arzularını, fikirlərini öyrənirəm. Yəqin edirəm ki, bu əsgərlərin timsalında formalaşan təcrübəli top heyəti torpaqlarımızın işğaldan azad edilməsi uğrunda savaşda qələbəmizin təmin edilməsinə dəyərli töhfəsini verəcəkdir.

**Polkovnik-leytenant**
**Arif PƏNAHOV,**
**"Azərbaycan Ordusu"**

*Gənc zabitlərimiz*

# "Hərbçi olmağımla fəxr edirəm"

*Yarım saatdan çoxdur ki, ön xəttə doğru gedirik. Yollar narahat olduğundan maşın bizi atıb-tutur, tez-tez sürücü sürəti azaltmalı olur. Hansı mövqelərə, hansı səngərlərə gedəcəyimizi zabit Eldəniz Gözəlov əvvəlcədən müəyyənləşdirib. İndi torpaq yollar bizi həmin istiqamətə aparır.*

Qarşıdakı təpəni aşan kimi mövqelərimiz uzaqdan görsəndi. Bir azdan döyüşçülərin yanına çatdıq. Ön xətdəki bölükdə canlanma var idi. Kiçik dəstələrə bölünmüş əsgərlər xüsusi olaraq ayrılmış sahədə təlim keçirdilər. Bizi bölüyün qarşısında kapitan Anar Qlinçev qarşılayaraq bildirdi ki, əsgərlərimiz torpaqlarımızın keşiyində həmişə ayıq-sayıq dayanırlar. Ermənilərin bütün təxribatlarının qarşısı qətiyyətlə alınır. Düşmən ağır itki verib geri çəkilir. Dəqiq atəş zərbələrimiz qarşısında duruş gətirə bilmir. Biz nəyin bahasına olursa-olsun, torpaqlarımızı erməni işğalçılarından azad edəcəyik.

Bölük komandiri zabit Anar Qlinçevlə ötən il bu istiqamətə ezamiyyətə gələndə tanış olmuşduq. İti baxışı, məğrur çöhrəsi və ötkəm səsi onun möhkəm iradə sahibi olduğundan xəbər verir. Onunla ilk dəfə tanış olanda yayın isti günləri idi. İndi isə təbiətə qış hökmranlıq edir.

Qısa söhbətdən sonra birlikdə ön mövqelərə gedirik. İrəliyə - yurdumuzu qoruyan döyüşçülərin yanına tələsirik.

Məğrur döyüşçülərlə görüşüb söhbət edirik. Onlar mövqelərindən, dayandıqları səngərlərdən daim düşmən istiqamətində müşahidələr aparıb ermənilərin bütün hərəkətlərini nəzarətdə saxlayırlar. Bölük komandiri bizi gənc zabit leytenant Tural Məmmədovla tanış edərək onun haqqında xoş sözlər dedi. Bildirdi ki, o, xidmətinə məsuliyyətlə yanaşır. Üzərinə düşən tapşırıqların öhdəsindən bacarıqla gələrək həm zabit yoldaşlarının, həm əsgərlərin, həm də komandanlığın rəğbətini qazanıb. Belə peşəkar zabitlərlə həmişə fəxr edirik.



- Bu gün biz zabitlərin üzərinə böyük vəzifələr düşür, - deyə leytenant Tural Məmmədov bizimlə söhbətə başladı. - Ən başlıca vəzifəmiz torpaqlarımızı erməni işğalçılarından azad etməkdir. Əminəm ki, ermshort qəsbkarları gücümüz qarşısında duruş gətirə bilməyəcəklər. Düşməni vaxt gələcək torpaqlarımızdan qovacağıq. Neçə illərdən bəri işğal altında olan ərazilərimizə qələbə bayrağı sancmaq ən böyük arzumuzdur. Müharibə şəraitində yaşadığımız indiki günlərdə hərbçi olmağımla fəxr edirəm.

Gənc zabit daha sonra söhbətinə davam edərək nümunəvi əsgərlərdən də söz açdı. Bildirdi ki, şəxsi heyət xidmətinə daim məsuliyyətlə yanaşır. Onlar hər an qəsbkarların hücumlarını dəf etməyə hazırdırlar. "Əminəm ki, Elnur Rzayev, Aqil Mehdixanov, Etibar Məsiyev kimi cəsur əsgərlərlə döyüş meydanlarında qələbə əzmi ilə vuruşacağıq".

Səngərlərdə dayanmış zabit və əsgərlərə xidmətlərində uğurlar arzulayıb qarşıdakı mövqelərə tələsirik. İrəli atdığımız hər addım bizi Haramı düzünün dərinliklərinə aparır...

**Mayor**
**Vahid MƏHƏRRƏMOV,**
**"Azərbaycan Ordusu"**

# Bayramınız mübarək,əziz qadınlarımız!

*Azğın Kir padşahına qan içdirən Tomris, İsgəndərə davranışı ilə hikmət anladan Nüşabə, Qazan xanın sədaqətli Burla xatunu, diplomatik gedişləri ilə hər kəsi heyrətə salan Sara xatun, dərin zəkası ilə müharibələr yatıran Şah İsmayılın qızı Məhinbanu Sultan, Şah Təhmasibin qızı Pərican xanım, Koroğlunun Nigarı, Qaçaq Nəbinin Həcəri... daha kimlər təkcə tariximizdə deyil, həm də bu günümüzdədir. Mübarizləri, Fəridləri dünyaya bəxş edib, başını uca tutan yenilməzlik rəmzi olan analarımız var. Bəli, dünya qadınları sırasında Azərbaycan xanımlarının özünəməxsus xüsusi yeri var.*





Martın 4-də 8 Mart Beynəlxalq Qadınlar Günü münasibəti ilə Müdafiə Nazirliyi Mərkəzi Hərbi Poliklinikasında H.Aslanov adına Mərkəzi Zabitlər Evinin - Azərbaycan Respublikası Silahlı Qüvvələri Mahnı və Rəqs Ansamblının təşkilatçılığı ilə bayram tədbiri keçirilib. Rəngarəng musiqi nömrələrini böyük maraqla dinləyən poliklinikanın xanımları həmin gün xoş anlar yaşayıb, şənlənib, istirahət ediblər.

Mərkəzi Zabitlər Evinin əməkdaşı Gülşən İmamquliyevanın rejissorluğu və ssenari müəllifliyi ilə araya-ərsəyə gələn bayram tədbirinin aparıcısı, əməkdar mədəniyyət işçisi polkovnik-leytenant Zöhrab İmamquliyev xeyirxah peşə sahiblərini 8 Mart Beynəlxalq Qadınlar Günü münasibəti ilə təbrik edib, onlara ən xoş arzularını bildirib. O, görkəmli yazarlarımızın - Səməd Vurğunun, Cəfər Cabbarlının, Hüseyn Cavidin, Rəsul Rzanın, Bəxtiyar Vahabzadənin, Nəbi Xəzrinin və başqalarının yaradıcılığında yer alan qadın, ana obrazlarından söz açıb. Böyük şairimiz Hüseyn Cavidin "Ana" əsərindən parçalar söyləyib. Dünyanın bəzəyi olan xanımlarımıza Tofiq Bayramın "Qadın ürəyi"nin pıçıltılarını qiraətçi istedadı ilə çatdırıb.

Sonra əməkdar artist Rəhilə Bəndəliyevanın ifasında səsləndirilən "Ana laylası" həzinliyi ilə xanımlarımızda xoş ovqat yaradıb.

Kiçik gizir Səbinə Qasımovanın da oynaq estrada mahnıları alqışlarla qarşılanıb.

Hərbi tibb sahəsində çalışan xanımlarımızı təbrikə gələn Yazıçılar Birliyinin hərbi vətənpərvərlik komissiyasının üzvü, eyni zamanda həkim, şair, bəstəkar, "And içirik", "İgid əsgər", "Qalx, Azərbaycan!", "Cənab leytenant", "Birinci batalyon" kimi məşhur mahnıların müəllifi Şahin Musaoğlu dünyanın heç bir yerində tayı-bərabəri olmayan Azərbaycan qadınlarının işgüzarlığından, cəmiyyətdə mövqeyindən ürəkdolusu danışıb.

Kiçik gizirlər Elçin Məmmədov və Leyla Qəhrəmanovanın ifa etdikləri "Cənab leytenant" mahnısı hər kəsə vətənpərvərlik duyğuları yaşadıb.

Ölməz şairimiz Nüsrət Kəsəmənlinin ülvi məhəbbətə, saf sevgiyə köklənən "Getmək istəyirsən bəhanəsiz get" şeiri isə Gülşən İmamquliyevanın qəlbəyatımlı səsi ilə alqışlara səbəb olub.

Ansamblın üzvləri Nurşən Məmmədov, Vüsal Ağayev və Fərman Əsgərov qadına sevgi, ülvi hisslər aşılayan mahnıları ilə ağ xalatlı tibb işçilərimizi sevindiriblər.

Solistlər gizir Rafiq Qasımov, baş çavuş Cəmaləddin Vəliyev və Ağayar Fərhadov zərif xanımlarımızın şərəfinə ruhu oxşayan melodiyaları məharətlə səsləndiriblər.

Çavuş Mədinə Kazımova da xalq mahnısı "Reyhan"ı ilə tibb işçilərinin görüşünə gəlmişdi. Xarici bəstəkarların klassik əsərləri Ülviyyə Novruzovanın ifasında dinlənilib.

Bayram tədbirinin daha yaddaqalan məqamlarından biri illüzüyaçı Elmar İbrahimovun maraqlı nömrələri olub.

Sonda Mərkəzi Hərbi Poliklinikanın rəisi polkovnik-leytenant Mehriban Quliyeva konsert proqramının təşkilində zəhməti olan hər kəsə öz minnətdarlığını bildirib və bütün xanımları 8 Mart Beynəlxalq Qadınlar Günü münasibəti ilə təbrik edib.

---

*Ölkəmizdə əlamətdar günlərdən biri də 8 Mart Beynəlxalq Qadınlar Günüdür. Azərbaycanda isə qədimdən analara diqqət, sayğı olub. Ana müqəddəs varlıqdır. Cəmiyyətimizdə qadınlara diqqət və qayğı böyükdür. Dünyanın bəzəyi olan analar həmişə sevilib, əzizləniblər. Ana dünyanın bəzəyi solmayan gülü, çiçəyidir.*





Müharibə illərində silaha sarılıb ön cəbhədə döyüşən qadınlarımız çox olub. Hətta Tomris kimi qadın sərkərdəmiz az olmayıb. Belə qadınlar millətimizə şərəf, ucalıq gətirib. İstehsalatda çalışan qadınlar da öz əməksevərliyi ilə şöhrət qazanmışlar. Bu gün də cəmiyyətimizin ayrı-ayrı sahələrində, o cümlədən orduda çalışan qadınlarımız verilən tapşırıqları yerinə yetirmək üçün bacarıqlarını əsirgəmirlər.



"N" hərbi hissəsində olarkən polkovnik Elşad Əbilov bildirdi ki, istər xanım hərbi qulluqçular, istərsə də mülki işçilər xidməti vəzifələrinin öhdəsindən bacarıqla gəlirlər. Mayor Anar Novruzovla qadınların çalışdıqları hərbi hissənin camaşırxanasına gəldik. İlk qarşılaşdığım ağbirçək xanım Mahiyyə Cabbarova oldu. 20 ilə yaxındır burada dərzi işləyini deyən Mahiyyə xanımın həyat yoldaşı da bu hərbi hissədə xidmət edib, hazırda o, təqaüddədir. Dərzi əsgərlərin geyimlərinin bərpası üçün səylə çalışdığını bildirdi və əlavə etdi ki, bir ildən artıqdır yeni tikilmiş və müasir avadanlıqlarla təchiz olunmuş binaya köçüblər. "Şərait yaxşı olanda işin də keyfiyyəti yüksək olur. Buna görə Müdafiə Nazirliyinin rəhbərliyinə minnətdarlığımı bildirmək istərdim".

Camaşırxanada bu və ya digər vəzifələrdə çalışan xanımlardan Səqiyyət Cabbarova, Natavan İsmayılova, Cansiyyət İbrahimova, Nazilə İsrafilova, Rəna Abdullayeva, Nəzakət Qəniyeva, Gülpəri Cabbarova və Mərcan Cəfərova öz işlərinin öhdəsindən daim bacarıqla gəlirlər.



Hərbi hissədə qadın əməyinin tələb olunduğu sahələrdən biri də əsgər yeməkxanasıdır. Burada, zabit Kərəm Mustafayevin sözlərinə görə, təcrübəli, öz işini yetərincə bilən aşpazlar çalışır. Onlardan müddətdən artıq həqiqi hərbi xidmət hərbi qulluqçuları Afaq Məmmədova, Mahcamal Ağayeva, mülki işçilər Kəklik Səfərova, Adilə Qasımova, Səlminaz İlyasova, Məhbubə Mədətova əsgərlərə milli mətbəximizin dadlı yeməklərini - küftə, dolma, əriştə, mərci supu və başqa yeməkləri hazırlayırlar.

"Əsgər yeməkxanasında çalışan mülki aşpazlar növbəli iş qrafiki ilə çalışırlar, onlar xörəklərin hazırlanmasında heç vaxt nöqsana yol verməyiblər. Əvvəlki illərlə müqayisədə yeməklər yüksək keyfiyyətlə hazırlanır", - deyə zabit K.Mustafayev bildirdi.

Orduda ən vacib xidmət sahələrindən biri də rabitədir. Hərbi əməliyyatların idarə edilməsində əlaqə ən mühüm vasitədir. Bunun üçün hərbi rabitə sahəsində kifayət qədər peşəkar hərbi qulluqçular çalışmalıdırlar. Müddətdən artıq həqiqi hərbi xidmət hərbi qulluqçusu əsgər Yenigül Zülfiyeva 10 ilə yaxındır rabitədə çalışır. Mayor M.Tağıyevə görə, o, peşəsinin məsuliyyətini dərindən dərk edən intizamlı hərbi qulluqçulardandır.

Fürsətdən istifadə edib hərbi xidmətdə olan bütün xanımları 8 Mart Beynəlxalq Qadınlar Günü münasibəti ilə təbrik edir, onlara yeni-yeni uğurlar arzulayırıq.

**(ardı 5-ci səhifədə)**

# Bayramınız mübarək,əziz qadınlarımız!

(əvvəli 4-cü səhifədə)

*Həyatımızın bütün sahələrində əvəzsiz rolu olan qadınlarımız böyük hörmət və ehtirama layiqdirlər. Onlar təhsil, elm, mədəniyyət və incəsənət sahələrində böyük uğurlara imza atırlar. Elə bir sahə yoxdur ki, orada qadınlarımızın zəhməti hiss olunmasın. Vətənimizin çətin və ağır günlərində qadınlar kişilərlə yanaşı çiyin-çiyinə çalışmışlar.*



Həyatımızın ayrılmaz hissəsi olan Silahlı Qüvvələrimizdə də qadın hərbi qulluqçularımız, mülki vəzifələrdə çalışanlar Vətənə layiqli xidmətləri ilə seçilirlər. 8 Mart Beynəlxalq Qadınlar Günü ərəfəsində



cəbhə bölgəsindəki "N" hərbi hissəsində onların bir qrupu ilə söhbət etmək qərarına gəldim.

Zabit Rasim Manafov bildirdi ki, qadın hərbi qulluqçularımız Vətənə, xalqa şərəfli xidmət etməyi ömürlərinin mənası hesab edirlər. "Azərbaycan qadınları həmişə Vətənə, ailəyə sonsuz məhəbbətləri ilə seçiliblər. Bu gün də onlar xalqımızın adət-ənənələrini, əxlaqi dəyərlərini inkişaf etdirirlər.

Hərbi tibb bacısı olan kiçik çavuş Ceyhunə Həsənova Gəncə Tibb Texnikumunu bitirib. Bir müddət başqa səhiyyə ocağında çalışsa da, istəyi hərbi qulluqçu kimi xidmət etmək olub. Artıq istəyinə çatıb, Silahlı Qüvvələrimizdə hərbi xidmətdədir. Ən böyük arzusu işğal altında olan torpaqlarımızın azad edilməsində iştirak etməkdir.

Kiçik çavuş Pərvanə Mirzəyeva da hərbi sahəni seçməkdə yanılmadığını deyir. "Hər bir kəs Vətəninin əsgəri olmağı bacarmalıdır. Vətən torpaqları nicatını igid, mətin övladlarından gözləyir".

* * *

Hərbi hissədə olarkən əsgər yeməkxanası ilə yaxından tanış olduq. Yaradılan yüksək nizam-intizam, təmizkarlıq diqqətimizi cəlb etdi. Geniş və yaraşıqlı yeməkxana müasir tələblər səviyyəsində inşa edilib və ən müasir avadanlıqlarla təmin olunub. Ötən illərlə müqayisədə məişət işlərini yüksək təcrübəyə malik qadın qulluqçular həyata keçirirlər. Əsgərlərə ağ xalatlı qadınlar qulluq edirlər.

Baş gizir Rəşad Məmmədov bildirdi ki, məqsəd şəxsi heyətin keyfiyyətli qidalanmasına nail olmaqdır. Təcrübəli aşpazlarımızın, qadın qulluqçularımızın səyi ilə bu işlərin öhdəsindən gəlirik, əsgərlərimizi milli xörəklərlə təmin edirik. Bu da onların sağlam qidalanmalarına hərtərəfli şərait yaradır.

Baş aşpaz Afərin Qafarova, aşpazlar Rəsmiyyə Həsənova, Günel Baxşəliyeva və başqaları işlərinin öhdəsindən bacarıqla gəlirlər. Zal xidmətçiləri Həqiqət Qurbanova, Səma Cəfərova, Ruhiyyə Tağıyeva da əsgərləri öz doğma balaları kimi sevdiklərini və işlərindən zövq aldıqlarını bildirdilər.

* * *

Ümummilli lider Heydər Əliyev zabit peşəsinə daim yüksək qiymət verirdi. Peşələr içində zabit peşəsinin əvəzsiz olduğunu bildirərək Vətənimiz, xalqımız üçün bu peşənin nə qədər dəyərli olduğunu diqqətə çatdırırdı.

Zabit peşəsini seçən, mətin, iradəli qadınlarımızdan biri də leytenant Pərvanə Həsənovadır. Şəmkir rayonunda doğulub boya-başa çatan zabit Gəncə Dövlət Universitetini sosial-psixoloji xidmət ixtisası üzrə bitirib. Bir müddət başqa sahədə çalışsa da, orduda xidmət etməyi hər şeydən üstün tutub. 2014-cü ildən "N" hərbi hissəsində zabit kimi xidmətə başlayıb, komandanlığın rəğbətini qazanıb. Silahlı Qüvvələrin Təlim və Tədris Mərkəzində psixoloq ixtisası üzrə zabit hazırlığı kursunu müvəffəqiyyətlə bitirən leytenant Pərvanə Həsənova Azərbaycan zabiti kimi şərəfli ad daşıdığından qürur hissi keçirdiyini bildirir.

- Bu gün qürur duyuram ki,



zabit peşəsinə yiyələnmişəm. Vətənimə, xalqıma ləyaqətlə xidmət edəcəyəm, - deyir xanım leytenant. - Bəzən hərbi peşənin nə qədər çətin olduğunu deyirlər. Amma mənə elə gəlir ki, cinsindən asılı olmayaraq hər kəs həyatda istədiyi işin öhdəsindən gəlməyə qadirdir.



*Qarabağda vəziyyət gərginləşmişdi. Ermənilərin həmlələri xeyli artmışdı. Elobanın imdadına çatmaq istəyənlər - Vətəni sevənlər yaradılmaqda olan ilk taborun tərkibində döyüşlərə getmək istəyirdi. Onların sırasında Çiçək Məcidova da vardı.*

Onu könüllülərin sırasına nə gətirmişdi?..

O da evinin daş-divarını mərmilər didişdirənlərin, ocaq daşlarını güllələr tərpədənlərin, gecələrinin yuxusunu itirənlərin, ... dadına yetmək istəyirdi. Çiçəyi çiçəklərinin ləçəklərini güllələr yaralayan Qarabağımıza ürəyi çəkib aparırdı. Qardaş itirən bacıya bacı olmağa, şəhid oğlun əvəzinə, döyüşən oğullarla bir səngərdə vuruşmağa, Qarabağa atılan güllələrin səsini eşitməyənlərə görk olmağa gedirdi...

Taborun silah anbarının karguzarı idi. Müharibəli illər yaşayırdı. Müharibənin nə olduğunu görürdü, hərdən hönkür-hönkür ağlayırdı, hərdən göz yaşları ürəyinə axırdı. Döyüşlər gərginləşəndə yaralananlara yardım eləmək üçün bəzən əsgərlərin sırasına can atırdı.

Çiçəyin ürəyi bir sevginin (Vətənə, torpağa), bir nifrətin (torpaqlarımıza tamahlanan, ərazi bütövlüyümüzü parala-



maq istəyənlərə) beşiyinə döndü. Tez-tez göz yaşları yaralı döyüşçünün sarğısını isladırdı...

Kövrəkliklə, uçunan duyğularla birinci taboru, mənim də tanıdığım zabitləri, 1993-cü ilin mart ayının 8-ni xatırladıq. Həmin gün döyüşə gedənlər bir anlığa ayaq saxlayıb, sözsüz baxışlarla təbrik edib Çiçəyi. "Adını unutduğum döyüşçü mənə bir çiçək bağışladı. Hələ tam sağalmamışdı, döyüşə gedirdi. Onu bağrıma basdım. O gülün ətrini indiyəcən unutmamışam. O ətir mənimlə son nəfəsiməcən yaşayacaq..." - dedi Çiçək Məcidova...

Döyüşlər gərginləşəndə torpağa - Vətənə görə onun da ürəyi uçunurdu.

Müharibənin öz qanunları var. Çiçək Məcidova döyüşlərə getmək istəyirdi. Komandir xəbərdarlıq eləyəndə, "Ürəyimlə bacarmıram, komandir. Heç olmasa bir yaralıya kömək eləyə bilərəm", - deyirdi Çiçək Məcidova. Bu anları da kövrəkliklə xatırladı...

...1994-cü ildə Daxili Qoşunlara məxsus hərbi hissələrin birinə məxfi hissə rəisi təyin olundu. Hərbi forma geyindi. Gizir rütbəsində xidmətə başladı...

Bayram ərəfəsində komandirin təqdimatı ilə ən bacarıqlı, ən qayğıkeş aşpaz kimi ikinci qrup Qarabağ müharibəsi əlili Çiçək Məcidova ilə söhbətləşdik. Olmuşlardan danışdıq, şəhidlərimizi xatırladıq. Hərbi hissədə ehtiramlarla əhatələnən bu vətənsevər qadın sözarası dedi:

- Gördüyüm hərbçiləri özümə qardaş bilirəm, oğul bilirəm. Onların hər biri Vətənin əsgəridi. Hər gördüyüm hərbçi mənə zamanında yaşadığım illəri yenidən yaşadır. Bir dəfə dayanacaqda 23-24 yaşlı bir qız gördüm. Onun baxışlarının doğmalığı ürəyimi titrətdi. Mənə belə gəldi ki, müharibədə şəhid olmuş döyüşçülərimizdən birinin qızıdı. Özümü ələ alana kimi qız uzaqlaşıb getdi. Kəlmələşə bilmədim...

2012-ci ildə ordudan tərxis olunub. Silahlı Qüvələrimizdə həyata keçirilən islahatlardan sonra yenidən hərbçilərin yanında olmaq istəyib. Əsgərlərimizə ana qayğısı göstərmək üçün. Çiçək Məcidova aşpazdı...

Hərbi Dəniz Qüvvələrinə məxsus hərbi hissələrin birində aşpaz işləyən Çiçək Məcidova dedi ki, bu gün anaların qızı kimi, qızların bacısı kimi hamısının bayramını təbrik edir. "Onlara könül xoşluğu arzulayıram. Könül xoşluğu torpaqlarımızın işğaldan azad edilməsi olacaq. O günün həsrətindəyik..."

Sizin də bayramınız mübarək, Çiçək xanım. Biz də sizin arzularınıza qoşuluruq. İnanırıq ki, Ali Baş Komandanın əmrinə hazır olan ordumuz sizə də, qızı olmaq istədiyiniz analara da, bacısı olmaq istədiyiniz qızlara da, ümumən məmləkətimizə könül xoşluğu yaşadacaq.

**"Azərbaycan Ordusu"**

AZƏRBAYCAN ORDUSU

# "TURAZ Şahini - 2016" təlimlərində iştirak edəcək şəxsi heyətin bir qismi Türkiyəyə yola düşüb



***Azərbaycanla Türkiyə arasında illik hərbi əməkdaşlıq planına əsasən, martın 7-də başlayacaq "TURAZ Şahini - 2016" təlimlərində iştirak etmək məqsədilə Azərbaycan Hərbi Hava Qüvvələrinin təlimlərə qatılan şəxsi heyətinin bir qismi Konya şəhərində yerləşən aviabazaya gəlib.***

İki ölkənin Hərbi Hava Qüvvələrinin iştirakı ilə keçirilən təlimlər martın 25-dək davam edəcəkdir.

Qeyd edək ki, artıq ikinci dəfə Türkiyədə baş tutacaq müştərək təlimlərdə Azərbaycan Hərbi Hava Qüvvələrinin 3 ədəd MiQ-29 qırıcı, 3 ədəd Su-25 hücum və İl-76 hərbi-nəqliyyat təyyarələri iştirak edəcəklər.

**Müdafiə Nazirliyi Mətbuat Xidməti**

# Ermənistan silahlı qüvvələrinin hərbi nəqliyyat vasitələri və canlı qüvvəsi məhv edilib

***Martın 4-də qoşunların təmas xəttində Ermənistan silahlı qüvvələrinin son təxribat törətmək cəhdinə cavab olaraq, bölmələrimiz növbəti təxribata hazırlaşan düşməni əvvəlcədən aşkar edərək ona qabaqlayıcı zərbə endiriblər.***

Atəş nəticəsində hərbi texnika və onlarla canlı qüvvə itirən düşmən törətdiyi qanlı fəaliyyəti öz xalqından yenə də gizlədir.

Müdafiə Nazirliyi xəbərdar edir ki, düşmənin istənilən təxribat cəhdinin, eləcə də dinc yaşayış məntəqələrimizin atəşə tutulmasının qarşısı Silahlı Qüvvələrimiz tərəfindən dərhal və qətiyyətlə alınacaq, düşmənin Ağdərə, Madagis, Talış və digər məntəqələrdə yerləşən hərbi infrastrukturu atəşlə məhv ediləcəkdir.

# Silahlı Qüvvələrimizin nümayəndələri beynəlxalq tədbirlərdə iştirak edirlər

Müdafiə Nazirliyi Mətbuat Xidmətinin məlumatına əsasən, martın 7-dən 18-dək Qeilenkirxen şəhərində (Almaniya Federativ Respublikası) milli koordinatorlar üçün atıcı silah, sursatlar sahəsində fiziki təhlükəsizlik və ehtiyatların idarə edilməsi və Ankara şəhərində (Türkiyə) şəxsi heyətin idarə olunması üzrə təcrübə mübadiləsi kursları keçirilir.

Tədbirlərdə Azərbaycan Respublikası Silahlı Qüvvələrinin nümayəndələri də iştirak edirlər.

# Müdafiə Nazirliyi Mətbuat Xidmətinin məlumatı

Ermənistan silahlı birləşmələri atəşkəs rejimini pozub

***6 mart 2016-cı il.***

Müdafiə Nazirliyi bildirir ki, erməni silahlı bölmələri cəbhənin müxtəlif istiqamətlərində sutka ərzində atəşkəs rejimini ümumilikdə 111 dəfə pozub.

Ermənistan Respublikası İcevan rayonu ərazisindəki adsız yüksəkliklərdə və Paravakar kəndində yerləşən mövqelərdən Qazax rayonu ərazisindəki adsız yüksəkliklərdə və Ağstafa rayonunun Köhnəqışlaq kəndində, Berd rayonunun Mosesqex kəndində yerləşən mövqelərdən Tovuz rayonunun Əlibəyli kəndində yerləşən mövqelərimiz atəşə tutulub.

Goranboy rayonunun Gülüstan, Tərtər rayonunun Göyarx, Çaylı, Yarımca, Ağdam rayonunun Şıxlar, Baş Qərvənd, Cəvahirli, Sarıcalı, Kəngərli, Novruzlu, Şuraabad, Xocavənd rayonunun Kuropatkino, Füzuli rayonunun Horadiz, Qaraxanbəyli, Qorqan, Aşağı Əbdürrəhmanlı, Aşağı Seyidəhmədli, Cəbrayıl rayonunun Mehdili kəndləri yaxınlığında, həmçinin Göygöl, Goranboy, Xocavənd, Füzuli və Cəbrayıl rayonları ərazisindəki adsız yüksəkliklərdə yerləşən mövqelərdən də Silahlı Qüvvələrimizin mövqeləri atəşə tutulub.

Azərbaycan Silahlı Qüvvələri əməliyyat şəraitini nəzərə alaraq, düşmənin atəş nöqtələrinə, mövqelərinə və səngərlərinə 116 dəfə atəş zərbəsi endirib.

***7 mart 2016-cı il.***

Müdafiə Nazirliyi bildirir ki, erməni silahlı bölmələri cəbhənin müxtəlif istiqamətlərində sutka ərzində atəşkəs rejimini ümumilikdə 119 dəfə pozub.

Ermənistan Respublikası İcevan rayonunun Berkaber, Noyemberyan rayonunun Voskepar, Voskevan kəndlərində yerləşən mövqelərdən Qazax rayonunun Qızılhacılı, Məzəm, Quşçu Ayrım kəndlərində, Berd rayonunun Ayqepar, Mosesqex kəndlərində yerləşən mövqelərdən Tovuz rayonunun Əlibəyli, Ağdam kəndlərində, Krasnoselsk rayonu ərazisindəki adsız yüksəkliklərdə yerləşən mövqelərdən Gədəbəy rayonu ərazisindəki adsız yüksəkliklərdə yerləşən mövqelərimiz atəşə tutulub.

Goranboy rayonunun Gülüstan, Tərtər rayonunun Çiləbürt, Göyarx, Ağdam rayonunun Yusifcanlı, Mərzili, Novruzlu, Cəvahirli, Sarıcalı, Şuraabad, Kəngərli, Qaraqaşlı, Şıxlar, Xocavənd rayonunun Kuropatkino, Füzuli rayonunun Qaraxanbəyli, Horadiz, Qorqan, Aşağı Seyidəhmədli, Cəbrayıl rayonunun Mehdili kəndləri yaxınlığında, həmçinin Göygöl, Goranboy, Xocavənd, Füzuli və Cəbrayıl rayonları ərazisindəki adsız yüksəkliklərdə yerləşən mövqelərdən də Silahlı Qüvvələrimizin mövqeləri atəşə tutulub.

Azərbaycan Silahlı Qüvvələri əməliyyat şəraitini nəzərə alaraq, düşmənin atəş nöqtələrinə, mövqelərinə və səngərlərinə 125 dəfə atəş zərbəsi endirib.

*Redaksiyanın poçtundan*

# Ordumuz qürur və güvənc yerimizdir

***Ermənilər Dağlıq Qarabağı işğal etmək üçün Azərbaycana qarşı müharibəyə başlayanda Qubadlı rayonu düşmənə sinə gərən əsas rayonlarımızdan biri idi. Həmin çətin günlərdə rayonun vətənpərvər oğulları silaha sarılaraq ucqar dağ kəndlərini düşmənin təxribatlarından qorumağa çalışırdılar. O zaman ordumuz hələ formalaşmamışdı. Ərazi özünümüdafiə taborları arasında əlaqələr möhkəm deyildi, pərakəndəlik vardı. Ən önəmlisi isə vahid komandanlıq hiss edilmirdi. Silah-sursat çatışmırdı. Pərakəndə qüvvələr isə çəkici zindana bir vurmadıqlarına görə uğursuzluqlar bir-birinin ardınca gəldi, torpaqlarımızı, o cümlədən ana yurdum Qubadlını, təəssüf ki, düşmən işğal etməyə müvəffəq oldu.***



Biz o zaman hiss etdik ki, dövlət üçün qüdrətli ordunun mövcudluğu nə deməkdir. Ona görə bütün Azərbaycan xalqı bu gün öz ordusuna ümid yeri, dövlətimizin təhlükəsizliyinin qarantı kimi baxır. Hər bir soydaşımız kimi mən də ordumuzla fəxr edirəm.

Bu gün Silahlı Qüvvələrimiz dövlət rəhbərliyinin qayğısı ilə əhatə olunub. Ordumuzda nizam-intizam yaradılıb. Ən müasir silahlarla təchiz edilir, döyüş bacarığı ilbəil artır. Haqlı olaraq Silahlı Qüvvələrimizi Cənubi Qafqazın ən qüdrətli ordusu hesab edirlər. Bu bir azərbaycanlı kimi qəlbimi iftixar hissilə doldurur.

Hərbi hissədə, doğrudan da, həm xidmət etmək, həm də yaşamaq üçün yüksək şərait yaradılıb. Zabitlərin tələbkarlığı, əsgərlərin intizamı, hazırlığı diqqətimdən yayınmadı. Bizə əslində belə möhkəm, yüksək döyüş hazırlığına malik ordu lazımdır. Ona görə ki, Vətənimizin bir parçası Ermənistan silahlı birləşmələrinin işğalı altındadır və o torpaqların silah gücünə azad olunmasına hazır olmalıyıq.

**Cabbar HÜSEYNOV,**
**Qubadlı rayonu**

*Əsgərin tribunası*

# Vətəni qorumaq borcumuzdur

***Xaçmaz rayonundan orduya çağırılmışam. Ali təhsilliyəm. Vətənimi göz bəbəyim kimi qoruyub onun uğrunda son nəfəsədək mübarizə aparacağıma and içərək, Azərbaycan Respublikası Silahlı Qüvvələrinin sıralarına qəbul edilmişəm.***

Vətən, Ana kəlmələri hər kəsə əzizdir. Azərbaycan bizim doğma Vətənimiz, müqəddəs torpağımızdır. Bu torpağın üzərində ayaq açıb gəziriksə, onu sevməyə, qorumağa da borcluyuq. Bu gün mən də Vətənimizin keşiyində ayıq-sayıq dayanan yüzlərlə əsgərdən biriyəm.

Əlbəttə, güclü əsgəri, nizami ordusu olan ölkə heç zaman basılmaz. Bizim ordumuz Qafqazın ən güclü ordusudur. Bu orduda xidmət etməkdən qürurluyuq, ən böyük arzumuz yağı tapdağında olan torpaqlarımızı xilas etməkdi. Mənim kimi yüzlərlə əsgərin ürəyi bu istəklə çırpınır. İnanırıq ki, arzumuz mütləq gerçəkləşəcək. Düşmən üzərində qələbə qazanmaq ən böyük haqqımızdır.




Qarşıdan xalqımızın ən əziz bayramı - Novruz bayramı yaxınlaşır. Burada çərşənbələri qeyd edirik. Tonqal qalayıb şənlənirik. Bu bayrama hərbi hissəmiz ciddi hazırlaşır. Təmizlik, səliqə-sahman işləri görürük.

Fürsətdən istifadə edib doğma qəzetimiz vasitəsilə bütün əsgərləri qarşıdan gələn Novruz bayramı münasibətilə təbrik edir, onlara cansağlığı, xidmətlərini uğurla başa vurub sağ-salamat evlərinə geri dönməyi arzulayıram. İnşallah, tezliklə Novruz tonqallarını işğalda olan rayonlarımızda alovlandırıraq.

**Əsgər**
**Vəkil ŞAHBAZOV,**
**"N" hərbi hissəsi**

*Publisistik düşüncələr*

# Təəssüfün son nəfəsi

Mahiyyəti, məzmunu etibarilə nostalji hissləri ifadə eləyən "Harda qaldı cavanlığım?" mahnısını çox eşitmişik. Əlçatmazlıqda qalan illərə haray bildiyimiz bu kövrək mahnı eşidənləri həmişə duyğulandırıb.

Məni də duyğulandıran (həm də düşündürən!) bu melodik sorğunu son vaxtlar başqa bir ovqatla dinləyirəm.

"Harda qaldı cavanlığım?"da hiss edilməsi çətin olmayan bir giley var, təəssüf var. Giley nə gileydi, təəssüf nəyə görədi? Zamanında edilməli olanların edilmədiyinə görə qınaqdımı? Qınaqdırsa, kimə ünvanlanıb? - özünəmi, zamanəmi? Bu ovunmayan, misralanan, şeirləşən, musiqiyə dönən giley, ağrılı təəssüf zamanı dayandırmağa qüdrəti çatmadığına görədirmi? Giley, təəssüf fərdi duyğulara görədirsə, buna təəssüf. Təəssüfün mahiyyəti xalqa, millətə, dövlətə, dövlətçiliyə görədirsə, təəssüf yiyəsini əzizim bilib bağrıma basardım, gücü azalan əllərindən öpərdim...

Mahnıda aydınlığıyla görünən təəssüf olmuşlarla bağlıdı. Olmuşlar təkcə Cabir Novruzun şair ömründən düşüb qalanlardımı? Bəs xalqın, millətin, Vətənin taleyindən düşüb qalanlar? Ruhumuzun yaşarılığı naminə bunlara görə təəssüflənməliyik. Torpaqlarımızın işğalına təəssüflənməliyik, o torpaqların işğalda qalmasına təəssüflənməliyik, bu ağır yükün işğalla yaşıd olanların çiyinlərinə düşdüyünə təəssüflənməliyik. Təəssüf içində qətiyyətlə deməliyik ki, yükü təkcə əsgər oğullar çəkməyəcək. O yükü əli silah tutanların, ürəyində təpər, canında taqət olanların hamısı çəkəcək. Təəssüfün ömrünü qısaltmalıyıq!..

Tarix deyir ki, Alban hökmdarı Varaz yaşlaşanda sərkərdəliyi oğluna - gənc Cavanşirə etibar eləyib. Alban dövlətinin yaşamı naminə. İllərin ötüşməsindən zərrəcə təəssüflənmədən; olasıları yerinə yetirməyə qadir qüvvə görənlər heç zaman, heç bir şəraitdə "Harda qaldı cavanlığım?" deməyib (məntiqi (bədii) sualda bir inamsızlıq da var, yeni sən (siz) bacarmadın, mən (biz) cavan olsaydım o işi özüm görərdim)... Gecələrini bu təəssüflə səhər eləməyib. Ordunun gücünü, qüdrətini, əsgərlərin qətiyyətini, dəyanətini görənlər, bundan qürur duyanlar son nəfəsinə belə gedib. Xalqı xalq kimi, milləti millət kimi formalaşdıran amillərdən biri də bu olub, şübhəsiz. Yüz illər, min illər belə ötüşüb...

İndiki yaşlılar 25 il əvvəl cavanıydı, cavanlığın yaş sərhədini keçməkdəydi. İndiki cavanların atalarla yaş fərqi təxminən bu qədərdi. Atası Xankəndidə (Laçında, Kəlbəcərdə, Ağdamda, Füzulidə, Cəbrayılda, Qubadlıda, Zəngilanda) yaşamış bu cavanlar ata yurdunu görməyib. Buna da təəssüflənən oğullar görmədiyi torpaqları işğaldan azad etməlidi. Bunu özləri də bilir, torpaqlarımızın işğalına görə təəssüflənən, varlığını dara çəkən təəssüfün ömrünün gödəldilməsi üçün ömrünü girov qoymağa da hazır olan yaşlılar da...

1992-ci ilin payızında mühasirədə qalmış Zəngilanda doqqaz qapısına söykəkli daşın üstündə oturan, əli üzündə, dirsəyi dizində qalan ağsaqqalı görüncə, ayaq saxlamışdım. Dilim tutar-tutmaz:

*...daşdı sinəm,*
*Daşlaşıb, daşdı sinəm.*
*Yaralanmış daş gördüm,*
*Qaynadı, daşdı sinəm,* - demişdim. Ağsaqqalın yanağı boyunca iki damla yaş axmışdı. Çarəsiz təəssüf yaşlarıydı...

Ürək göynədən o məqamdan 23 il keçib. Zəngilan işğaldan azad edilən gün 23 il əvvəl duruşu məni varımdan yox eləyən həmin ağsaqqalı tapmağın, sağdırsa özünə, həyatda yoxdursa baş daşına bir bayatı deməyin təşnəsiyəm:

*"qala dərdi,*
*qala dərdi.*
*Dərdiydi*
*Dərd daşıdıq,*
*qoymadıq,*
*Bu dərdlə qala dərdi!.."*

Həmid kişinin yaşı 70-i keçib. Cavanlığından Bakıda yaşayır. 1965-ci ildən gəmi təmiri zavodunda işləyib. Ata ocağının sığındığı Füzulidə vəziyyət gərginləşəndə - 1989-cu ildə döyüşənlərin sırasına qatılıb. Yaralanıb, müalicə olunub, yenidən döyüşüb...

Maraqlı həmsöhbətdi, işıqlı adamdı. Həsəd aparılası düşüncələri bu günümüzdən üzülmür. Hər kəlməsi işğalda qalan torpaqlarımızla, güvəndiyi ordumuzla, ordumuzun gücü-qüdrətiylə, bir də əsgərlərimizlə bağlıdı. "O oğullar bizə yaşımızın keçdiyinə görə təəssüf dedirtməyəcək", - deyir Həmid kişi. Belə düşünənlərimiz minlərlədi. Zaman anlamında dünən bu günə güvənir, bu gün dövlət naminə, dövlətçilik naminə sabahın inamına söykənir.

"Böyüyüb pöhrə ağac olur, meydan kölgəsi arzulayanları sərinlədir. Yaşa dolur, ancaq insanlara yarıdığına görə ötənlərə təəssüflənmir. İnsan da belədi. Yaşadıq, əlimizdən gələni elədik. Bizi bizdən də savadlı, bizdən də qətiyyətli, bizdən də vətənsevər oğullar əvəzləyirsə, nəyə təəssüf etməliyik? Gənclərimiz arzuladığımız gənclər olmasaydı, təəssüflənərdik. Yeganə təəssüfümüz torpaqlarımızın işğalıdı, işğalda qalmasıdı...".

Bu kəlmələri ağsaqqal kəlamı bilməmək günahdı...

Eşitdiyimə görə, son nəfəsində xalq artisti xanəndə Qədir Rüstəmova "Gözün aydın, ay Qədir, Ağdamı azad elədik!" deyiblər. İllərlə dodağını yandıran təəssüfü bənzərsiz bir təbəssüm əvəzləyib. Yaşlıların təəssüfü Qədir Rüstəmovun təəssüfünün eynidi. Onların da təəssüfünün əriyəcəyi günə az qalıb.

- Zamanı saxlamaq mümkünsüzdü, ay oğul. Yeniyetmə cavanlaşır, cavanlar yaşlaşır. Siz sağ olun, əsgərlərimiz sağ olsun, - yaşlılar belə deyir...

Əsgərlərimiz düşmənin "gözünün odunu alıbsa", sülh danışıqları baş tutmasa, torpaqlarımızı işğaldan azad etməyə qadirdirsə, yaşlılar illərin ötdüyünə təəssüflənməz, cavanlığını haraylamaz...

"Harda qaldı cavanlığım?" harayı nostalji duyğularla bağlıdı, sosial mahiyyətə malik deyil. Arada kövrələndə bu təəssüfü dilə gətirənlər də əsgərlərimizin cəsarətindən, qətiyyətindən qürurlanır, təəssüfünü dodağında dondurur...

Hamımızın yaşamını bürüyən bu təəssüf son nəfəsi ərəfəsindədi...

**Rəşid HÜSEYNOV,**
**"Azərbaycan Ordusu"**

# Xəbərlər:
## hadisələr, faktlar

### İraq Kürd Muxtar Regionu Yaponiyaya ilk neftini ixrac edib



İraq Kürd Muxtar Regionu Yaponiyaya ilk dəfə xam neft ixrac edib.

Bu barədə muxtar regionun Təbii Ehtiyatlar Nazirliyi məlumat yayıb. Bildirilir ki, yanvarda regiondan Yaponiyaya 1 milyon barrel neft ixrac olunub. Mərkəzi ofisi Yaponiyada yerləşən "Tonen General" şirkəti kürd neftini Tokio yaxınlığındakı Kavasaki və Çiba şəhərlərindəki neft emalı zavodlarına daşıyıb.

### Dünyanın ən bahalı metro stansiyası Nyu-Yorkda açılıb



Nyu-Yorkun Manhetten rayonunda dünyanın ən bahalı metro stansiyası açılıb.

12 ilə tikintisi başa çatan stansiya Dünya Ticarət Mərkəzinin yanında yerləşir.

Şüşə və betondan hazırlanan bu monumental konstruksiyanın müəllifi ispan memarı Santyaqo Kalatravadır. Onun ideyasına görə yeni stansiyanın üzərindəki binanın damı nəhəng ağ quş qanadlarını xatırladır. Tikilinin eni 35 metr, uzunluğu isə 107 metrdir.

Metro stansiyanın tikintisinə 3.85 milyard dollar xərclənib, stansiyadan gün ərzində 250 min sərnişinin istifadə edəcəyi gözlənilir.

### Qırğızıstan Dövlət Təhlükəsizlik Xidmətində baş verən yanğın nəticəsində zərərçəkənlər var



Qırğızıstanın "Xabar" agentliyinin yaydığı məlumata görə, ölkənin Dövlət Təhlükəsizlik Xidmətində yanğın baş verib. Yanğın nəticəsində 9 nəfər dəm qazından zəhərlənib. Onlardan 6-nın vəziyyəti ağırdır. Yanğının səbəbləri haqqında məlumat verilmir.

### "Petronas" kimya və neft-kimya zavodu üçün 4 milyard dollar xərcləyəcək




Malayziyanın "Petronas" neft-qaz şirkəti kimya və neft-kimya emalı zavodunun inşası üçün 4 milyard dollar xərcləyəcək.

Şirkətin baş direktoru Sazali Hamzah "Petronas"ın törəməsi olan "Petronas Chemicals Bhd."in qarşıdakı 5 ildə istifadəyə verilməsi nəzərdə tutulan Johor əyalətindəki kimya və neft-kimya zavodunun inşasına 4 milyard dollar vəsait sərf edəcəyini deyib. Zavodun tikintisinə yaxın günlərdə başlanılması planlaşdırılır.

### Beynəlxalq Valyuta Fondu Çin yuanını beynəlxalq valyuta kimi tanıyıb



Beynəlxalq Valyuta Fondu (BVF) Çin yuanını rəsmi olaraq beynəlxalq ehtiyat valyutası kimi tanıyıb.

Bu barədə BVF-in məlumatında bildirilir. Qurumun Direktorlar Şurası BVF-yə üzv ölkələrinin valyuta ehtiyatlarının tərkibinə dair rüblük hesabatlarına ABŞ dolları, avro, Yaponiya iyeni, Britaniya funt-sterlinqi, İsveçrə frankı, Avstraliya dolları və Kanada dolları ilə birlikdə Çin yuanının ayrıca sətirlə əlavə edilməsi barədə qərar qəbul edib.

Qərar 2016-cı ilin oktyabrın 1-dən qüvvəyə minəcək. Eyni zamanda, yuan ABŞ dolları, avro, iyen və funt-sterlinqlə birgə BVF-nin ehtiyat valyutaları səbətinə daxil edilir.

**AZƏRTAC-ın materialları əsasında**

# Qəhrəmanlar heç zaman unudulmurlar



***Martın 4-də Silahlı Qüvvələrin Təlim və Tədris Mərkəzində C.Naxçıvanski adına Hərbi Liseyin təşkilatçılığı ilə Azərbaycanın Milli Qəhrəmanı Səfərov Cəlil Əziz oğlunun xatirəsinə həsr olunmuş mini futbol üzrə bölüklərarası birinciliyin açılış mərasimi keçirilib.***

Mərasimdə liseyin zabit, müəllim və kursant heyəti iştirak edib. Tədbir başlamadan öncə ümummilli lider Heydər Əliyevin və Azərbaycanın ərazi bütövlüyü uğrunda canlarını qurban verən şəhidlərimizin xatirəsi bir dəqiqəlik sükutla yad edilib. Dövlət himni səsləndirilib.

Lisey rəisinin şəxsi heyətlə iş üzrə müavini polkovnik-leytenant Kamran Nəsibov tədbir iştirakçılarını salamlayaraq Azərbaycan xalqının öz qəhrəmanlarını unutmadığını, belə qəhrəmanların şəhidlik kimi mənəviyyat zirvəsinə qovuşduqlarını bildirib. "Onlar həmişə bizim qəlbimizdə, yaddaşımızdadırlar. Qarabağ savaşı yüzlərlə belə Milli Qəhrəman yetişdirdi, onlardan biri də liseyin məzunu olan Səfərov Cəlil Əziz oğludur", - deyərək gələcəyin zabitlərinə Milli Qəhrəman haqqında ətraflı danışıb.

Səfərov Cəlil Əziz oğlu 28 yanvar 1962-ci ildə Gürcüstan Respublikası Marneuli rayonunun Lejbəddin kəndində anadan olmuşdu. Ailəlikcə Sumqayıt şəhərinə köçürlər. 1977-ci ildə Sumqayıt şəhər 10 saylı orta məktəbin səkkizinci sinfini bitirərək, C.Naxçıvanski adına Hərbi Liseyə qəbul olunur. 1980-ci ildə Vladiqafqaz Hərbi Raket-Zenit Komandirlər Məktəbinə daxil olur və buranı bitirərək, Qazaxıstanın Priozyorsk və Balxaş şəhərlərində yerləşən hərbi hissələrdə xidmət edir. Bədnam ermənilərin torpaqlarımıza qarşı təcavüzü başlayan zaman Azərbaycana qayıdır və Müdafiə Nazirliyində baş zabit vəzifəsinə təyin edilir. Sonra Dağlıq Qarabağa - Şuşaya ezam olunaraq burada gedən hərbi əməliyyatlarda iştirak edir. Cəlilin başçılığı ilə dəqiq top atəşləri nəticəsində ermənilər ağır itkilər vermişdi. Dinc əhalinin təhlükəsiz yerlərə köçürülməsində müstəsna xidmətləri olub. 15 may 1992-ci il Şuşa rayonunun Turşsu-Zarıslı kəndi istiqamətində gedən ağır döyüşlərdə cəsur zabit qəhrəmancasına həlak olur. Respublikamızın suverenliyi və ərazi bütövlüyünün qorunmasında, dinc əhalinin təhlükəsizliyinin təmin edilməsində göstərdiyi şəxsi igidlik və şücaətə görə Azərbaycan Respublikası Prezidentinin 7 iyun 1992-ci il tarixli fərmanı ilə "Azərbaycanın Milli Qəhrəmanı" fəxri adına layiq görülür. Bakı şəhərinin Şəhidlər xiyabanında dəfn edilib. Sumqayıt şəhərində təhsil aldığı 10 saylı orta məktəb hazırda Milli Qəhrəmanın adını daşıyır. Ailəli idi, iki övladı yadigar qalıb.



Sonra Hərbi Liseyin rəisi polkovnik Rüfət Əmirov Milli Qəhrəmanın xatirəsinə həsr olunmuş futbol turnirini açıq elan edib.



Tədbir iştirakçılarını salamlayan lisey rəisi Qarabağ uğrunda gedən döyüşlərdə Cəlilin qəhrəmanlıqlarının şahidi olduğunu bildirib.

- O vaxtı mən Silahlı Qüvvələrin əməliyyat bölməsinin rəisi idim, - polkovnik deyib. - Şuşada vəziyyət çox çətin idi. Bizdə məlumat yox idi ki, hissələrimiz hansı vəziyyətdədir. Ona görə də Baş Qərargah rəisi məni Şuşaya göndərdi. 1992-ci ilin mayında Cəlil Səfərovla bir yerdə vəziyyəti araşdırıb müdafiəni bərpa etmək üçün Turşsu- Zarıslı kəndinə gəldik. Biz burada müdafiəni bərpa edib, vəzifə borclarımızı yerinə yetirirdik. Mən rəhbərlikdən icazə aldım və o, könüllü olaraq döyüş bölgəsində qaldı. Döyüşlərin birində Cəlil qəhrəmancasına şəhid oldu. Allah rəhmət eləsin. Biz, Cəlil kimi qəhrəmanlarımızı heç vaxt unutmayacaq, qəlbimizdə daim yaşadacağıq.

Polkovnik son illər ordumuzda gedən yüksək inkişafı qeyd edərək, aparılan uğurlu islahatlardan danışıb. Ali Baş Komandanın əmri ilə torpaqlarımızın işğaldan azad ediləcəyinə əminliyini bildirən Lisey rəisi turnirdə iştirak edən komandalara uğurlar arzulayıb.

Silahlı Qüvvələrin Təlim və Tədris Mərkəzinin futbol meydançasında təşkil olunan turnirdə 9 komanda mübarizə aparacaq. İlk açılış oyunu 14-cü bölüklə, 3-cü bölük arasında keçirilib. Gərgin idman mübarizəsi 3-cü bölüyün 3-0 hesablı qələbəsi ilə başa çatıb.

**Mahmud MÖHBALIYEV,**
**"Azərbaycan Ordusu",**
**fotolar müəllifindir**

*Silahlar*

# “Mikro-Tavor” hücum silahıdır

***Dünyada TAR-21 (Tavor Assault Rifle-21) və ya "Tavor" adı ilə məşhur olan yeni avtomat tüfəng İsrail hərbi sənayesinin məhsuludur. Silahın adı bu ölkənin şimalındakı qədim Tavor dağının adından götürülüb, 21 indeksi isə karabinin 21-ci əsr üçün hesablandığını bildirir.***

İsrail Silahlı Qüvvələrinin komandanlığı 1993-cü ildə artıq köhnəlmiş "Qalil" avtomatlarını yeni silahla əvəz etmək qərarına gəlmişdi. Bundan bir neçə ay öncə "İsraeli Military İndustries" konserninin təşəbbüsü ilə yeni silahın ixtirası işlərinə başlamışdı. Tamamilə yeni konstruksiya olan Tavor TAR-21 adını almış müasir silah hazırlandıqdan və bir neçə il ərzində təkmilləşdirildikdən sonra 2004-cü ildə İsrail Ordusunda silahlanmaya qəbul edilib.

Tavor "bull pup" sxemi ilə hazırlanmış bir silahdır, yəni avtomatın darağı dəstəkdən arxada, bir xətt üstündə yerləşib və atışın yüksək dəqiqliklə aparılmasına imkan verir. Silahın üstün cəhətlərindən biri də odur ki, özü gödək olsa da, lüləsi nisbətən uzundur. Ancaq bunun neqativ tərəfi ondan ibarətdir ki, nişangah bir qədər yuxarıda qoyulub. Atış zamanı gilizlər sağ tərəfə atılır, ancaq sol tərəfə atılması üçün "Tavor"da asanlıqla kostruktiv dəyişiklik etmək mümkündür.



Avtomat həm də çöl şəraitində asanlıqla və sərbəst sökülüb yığılır. NATO standartlarına uyğun M16 silahının darağından istifadə edilir ki, bu da təminat baxımından çox rahatdır.

Müxtəlif taktiki tapşırıqları yerinə yetirmək baxımından onun çoxsaylı modifikasiyaları və ləvazimatları - müxtəlif uzunluqlu lülələri, optik gecəgörmə nişangahları, səsboğucusu, lüləaltı qumbaraatan bərkitmək üçün mexanizmi var.

"Mikro-Tavor" MTAR-21 İsrail avtomatının kompakt növüdür və rahat olduğu üçün xüsusi təyinatlı bölmələr, o cümlədən zabitlər, zirehli texnika heyətləri, arxa cəbhə əsgərləri üçün fərdi silah kimi nəzərdə tutulub.

"Mikro-Tavor" tipli 5.56 mm çaplı hücum silahı, başqa sözlə, avtomatik tüfəng, düşmənin canlı qüvvəsini məhv etmək və atəş vasitələrinə zərər yetirmək üçün nəzərdə tutulub.

Gecə vaxtı təbii işıqlandırma şəraitində atış aparmaq üçün silahın üstündə Mepro-Mor və digər modifikasiyalı gecəgörmə niangahı qurulur. Hədəfi görmək üçün infraqırmızı lazer şüalandırması ilə təmin edilib.

Lüləsində 6 yiv olan karabinin nişangah məsafəsi 300 metr, atış tezliyi dəqiqədə 700-1000 metrdir. Silahın çəkisi 2.95 kq, darağının tutumu 30 patrondur.

Dünyanın bir çox ölkələrinə məxsus ordularda silahlanmaya qəbul edilib. Ukrayna isə İsraillə birgə "Tavor" silahlarının "Fort" adı altında istehsalını həyata keçirir. Bu ölkənin təhlükəsizlik xidmətləri, Daxili İşlər Nazirliyinin çevik bölmələri bu avtomatlarla silahlanıb.

**Hazırladı:**
**Əbülfət QASIMOV,**
**"Azərbaycan Ordusu"**

**Məsul katib**
polkovnik-leytenant İlham BEHBUDOV

**Telefonlar**
Baş redaktor: (012) 510-71-97 (faks);
Baş redaktorun müavini: (012) 510-64-27;
Məsul katib: (012) 510-71-98
Məktublar şöbəsi: (012) 510-64-28;

**Ünvanımız**
Bakı şəhəri, akademik Şəfaət Mehdiyev küçəsi 144, “Qızıl Şərq” hərbi şəhərciyi

**Növbətçi**
Əbülfət QASIMOV

**Qəzetin hesabı**
Nərimanov Rayon Xəzinədarlığı
Kod: 200189
VÖEN: 1500428611

Qəzet həftədə iki dəfə (III-VI günlər) nəşr olunur. “Azərbaycan Ordusu” qəzeti kompüter mərkəzində səhifələnərək “Hərbi nəşriyyat”ın mətbəəsində hazır diapozitivlərdən çap olunur. Əlyazmalara rəy verilmir, təqdim edilən yazılar müəllifə qaytarılmır.

Lisenziya № 361
Sifariş № 114
Nüsxə 4700